| | |
|---|---|
| Layihənin adı: | Azərbaycan Mikromaliyyələşdirmə Bankı (MFBA) Sindikatlaşdırılmış Kredit |
| Ölkə: | Azərbaycan |
| Layihənin İD nömrəsi: | 38962 |
| Biznes sektoru: | Bank |
| Dövlət/özəl sektor: | Özəl sektor |
| Şura tərəfindən nəzərdən keçirilmə tarixi: | 17 june 2008-ci il |
| Status: | Aktiv |
| PSD-nin açıqlanması tarixi:<br>PSD-nin yenilənməsi tarixi: | 11 Aprel 2008-ci il<br>10 Iyun 2008-ci il |
| Layihənin təsviri və məqsədləri: | Təklif edilmiş layihə mikro və kiçik sahibkarlıq ("MSE") üçün kreditlərin təmin edilməsi məqsədilə Azərbaycan Mikromaliyyələşdirmə Bankına 40 milyona qədər ABŞ dolları həcmində sindikatlaşdırılmış kreditin təmin edilməsi məqsədini daşıyır. Mexanizm Azərbaycan Mikromaliyyələşdirmə Bankına kapital bazarlarına çıxışda yardım edəcək və xüsusilə paytaxdan kənarda inkişaf edən MSE-lərə kreditlərin təmin edilməsi əməliyyatlarının dəstəklənməsi məqsədilə uzun-müddətli maliyyələşdirilmənin təmin edilməsi vasitəsilə Azərbaycan maliyyə sisteminin inkişaf etdirilməsinə yardım edəcək. |
| Layihənin keçid təsiri: | Cari layihə ilk sindikatlaşdırılmış kredit olduğundan güclü keçid təsirinə malik olacaq və Azərbaycan Mikromaliyyələşdirmə Bankının beynəlxalq kommersiya xarakterli kredit bazarlarına çıxışını asanlaşdıracaq və bankın maliyyə bazasının müxtəlifləşdirilməsinə yardım edəcək.<br>Eyni zamanda, Azərbaycanda mikro və kiçik sahibkarlıq sektorunun inkişafı keçid təsirini möhkəmləndirməyə yardım edəcək, belə ki, Azərbaycan Mikromaliyyələşdirmə Bankı mikro və kiçik sahibkarlığa (MSE) davamlı dəstək göstərir ki, belə olmadığı təqdirdə MSE-lərin rəsmi sektor maliyyələrindən istifadə etmək imkanları olmazdır və |

| | |
|---|---|
| | ya bu imkanlar çox az olardı. Mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi özəl sektorun inkişaf etdirilməsi üçün AYİB mandatının əsas məqsədidir. |
| Sifarişçi: | Azərbaycan Mikromaliyyələşdirmə Bankı (MFBA) 29 oktyabr 2002-ci il tarixində təsis edilmiş qapalı səmdar cəmiyyətdir. Azərbaycan Mikromaliyyələşdirmə bankı yeganə mütəxəssis mikromaliyyə bankıdır və Azərbaycanda MSE-lər üçün ayrılan biznes kreditlərindən və digər istehlakçı kreditlərindən, milli və beynəlxalq ödəniş xidmətlərindən və depozitlərindən və digər əmanət məhsullarından ibarət məhsul çeşidləri olan MSME-lər üçün maliyyə xidmlərinin aparıcı təchizatçısıdır. 2007-ci ilin sonu üçün MFBA məcmu aktivlərinin həcminə görə 12 yerə sıralanmışdır. |
| AYIB tərəfindən təmin olunan maliyyələşdirmə: | AYIB 10 milyon ABŞ dollarına qədər vəsiaiti öz hesabında saxlayacaq. 30 milyona ABŞ dollarına qədər vəsait B-Krediti çərçivəsində sindikat bazarına təklif olunacaq. |
| Layihənin məcmu dəyəri: | 40 milyon ABŞ dolları |
| Ətraf mühitə təsir: | Azərbaycan Mikromaliyyələşdirmə Bankı AYİB-in yerli banklar üçün ətraf mühitə dair prosedurlarına müvafiq olaraq fəaliyyət göstərir, belə ki bu prosedurlar borcalandan ən azı milli/yerli ətraf mühit, sağlamlıq və təhlükəsizlik və işçi qüvvəsi haqqında strandart və qaydalara və ictimai məsləhətləşməyə dair tələblərə riayət etməyi tələb edir. Azərbaycan Mikromaliyyəşdirmə Bankı Ətraf mühitə dair illik hesabatı AYİB-ə təqdim edəcək. |
| Texniki əməkdaşlıq: | 2002-ci ildə fəaliyyətə başladıqdan etibarən Azərbaycan Mikromaliyyələşdirmə Bankı fəaliyyətinin başlanılmasının və rəhbərliyin fəaliyyətinin habelə fəaliyyətinin ilk üç ili ərzində regionlarda əhatəsinin genişləndirilməsinin dəstəklənməsi üçün texniki əməkdaşlıq vəsaitləri çərçivəsində təxminən 3.6 milyon AVRO həcmində vəsait almışdır. Texniki əməkdaşlıq vəsaitləri Avropa Birliyi və Almaniya tərəfindən AYİB vasitəsilə təmin edilmişdir. |
| Şirkətin əlaqə məlumatları: | Endryu Pospielovski<br>Baş Direktor<br>Ə.Quliev küçəsi, 137<br>Bakı Az-1000, Azərbaycan<br>Tel.: +994-12-493 07 26 |

| | |
|---|---|
| | Faks: +994-12-493 07 96<br>www.mfba.az |
| Biznes imkanları: | Biznes imkanları və ya təchizat ilə bağlı məsələlər üçün sifarişçi şirkət ilə əlaqə saxlayın. |
| Ümumi suallar: | AYİB layihəsi ilə bağlı təchizata aid olmayan suallar üçün əlaqə məlumatları:<br>Tel: +44 20 7338 7168; Faks: +44 20 7338 7380<br>E-poçt ünvanı: projectenquiries@ebrd.com |